**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 281
10.33864/2617-751X.2025.v8.i3.24-36

# From Secularism to Postsecularism: Paradigmatic Change?

**Asaf Ganbarov***

**Abstract.** This article explores the idea of postsecularism and the concept of post-secular society, focusing on the evolving relationship between religion and contemporary society. In the contemporary world, the interplay between religion and public life has undergone significant transformations due to globalization, multiculturalism, and the persistence of religious influence in social and political spheres. The study highlights the limitations of secularism, which advocates for the separation of religion from public and political life, and contrasts it with post-secularism, which acknowledges the enduring relevance of religion in modern societies. Habermas characterizes post-secular societies as those where religion retains a prominent role despite the processes of secularization. He argues that religious communities must adapt to modernity by engaging with scientific knowledge and secular laws, adopting a reflexive stance. Simultaneously, secular citizens should recognize the social value of religious beliefs rather than dismissing them as archaic remnants. This reciprocal adjustment fosters a dialogic space where religious and secular perspectives coexist and contribute to public discourse. The article outlines the differences between secularism and post-secularism. Secularism seeks to marginalize religion to the private sphere, emphasizing rational and scientific thought in public decision-making. In contrast, post-secularism integrates religion into the public sphere, viewing it as a source of moral and cultural values. Habermas proposes a "translation process," where religious arguments in public debates are reframed in universally accessible, secular language. To summarize, the article emphasizes that post-secularism offers a more inclusive framework for democratic societies, balancing religious and secular perspectives while addressing global challenges collaboratively.

**Keywords:** laicism, secularism, post-secularism, post-secular society, Habermas, Rawls

---

* Doctor of Philosophy in Sociology, Associate Professor,
Associate Professor of the Theology Institute of Azerbaijan; Baku, Azerbaijan
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

**To cite this article:** Ganbarov, A. [2025]. From Secularism to Postsecularism: Paradigmatic Change?. *“Metafizika” journal*, *8*(3), pp.24-36.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.24-36

***Article history:***
*Received: 30.12.2024*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 281
10.33864/2617-751X.2025.v8.i3.24-36

# От Секуляризма к Постсекуляризму: Парадигматическое Изменение?

**Асаф Ганбаров***

**Абстракт.** Эта статья исследует идею постсекуляризма и концепцию постсекулярного общества, уделяя внимание изменяющимся отношениям между религией и современным обществом. В современном мире взаимодействие религии и общественной жизни претерпело значительные изменения под влиянием глобализации, мультикультурализма и сохраняющегося религиозного влияния в социальных и политических сферах. Исследование подчеркивает ограничения секуляризма, который выступает за отделение религии от общественной и политической жизни, и противопоставляет ему постсекуляризм, признающий устойчивую значимость религии в современных обществах. Хабермас характеризует постсекулярные общества как такие, где религия сохраняет важную роль, несмотря на процессы секуляризации. Он утверждает, что религиозные общины должны адаптироваться к современности, взаимодействуя с научными знаниями и светскими законами, занимая рефлексивную позицию. Одновременно светские граждане должны признавать социальную ценность религиозных убеждений, а не отвергать их как архаичные пережитки. Этот взаимный процесс адаптации создает диалогическое пространство, где религиозные и светские перспективы сосуществуют и способствуют общественному дискурсу. В статье описываются различия между секуляризмом и постсекуляризмом. Секуляризм стремится маргинализировать религию, ограничивая ее частной сферой и подчеркивая значение рационального и научного подхода в общественном принятии решений. В отличие от этого, постсекуляризм интегрирует религию в общественную сферу, рассматривая ее как источник моральных и культурных ценностей. Хабермас предлагает процесс «перевода», в котором религиозные аргументы в общественных дебатах переформулируются в универсально доступном, светском языке. В заключение, статья подчеркивает, что постсекуляризм предлагает более инклюзивную структуру для демократических обществ, балансируя религиозные и светские перспективы и способствуя совместному решению глобальных вызовов.

**Ключевые слова:** лаицизм, секуляризм, постсекуляризм, постсекулярное общество, Хабермас, Ролз

---

* Доктор философии по социологии, доцент,
Доцент Азербайджанского института теологии; Баку, Азербайджан
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

**Цитировать статью:** Ганбаров, А. [2025]. От Секуляризма к Постсекуляризму: Парадигматическое Изменение?. *Журнал «Metafizika», 8*(3), с.24-36.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.24-36

***История статьи:***
*Статья поступила в редакцию: 30.12.2024*
*Отправлена на доработку: 03.02.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 281
10.33864/2617-751X.2025.v8.i3.24-36

# Sekulyarizmdən Postsekulyarizmə: Paradiqmatik Dəyişiklik?

**Asəf Qənbərov***

**Abstrakt.** Bu məqalədə postsekulyarizm və post-sekulyar cəmiyyət konsepsiyası araşdırılır, din və müasir cəmiyyət arasındakı inkişaf edən əlaqələrə diqqət yetirilir. Müasir dünyada din və ictimai həyat arasındakı qarşılıqlı təsir qloballaşma, multikulturalizm və dini təsirlərin sosial və siyasi sahələrdə davamlılığı səbəbindən mühüm dəyişikliklərə məruz qalmışdır. Tədqiqatda dini ictimai və siyasi həyatdan ayırmağı müdafiə edən sekulyarizmin bəzi məhdudiyyətləri göstərilir və müasir cəmiyyətlərdə dinin davamlı əhəmiyyətini qəbul edən postsekulyarizmlə müqayisə edilir. J.Habermas postsekulyar cəmiyyətləri sekulyarlaşma proseslərinə baxmayaraq dinin mühüm rol oynadığı cəmiyyətlər kimi xarakterizə edir. O, dini icmaların elmi biliklər və dünyəvi qanunlarla qarşılıqlı əlaqə quraraq modernləşməyə uyğunlaşmalı olduğunu iddia edir. Eyni zamanda, sekulyar vətəndaşların dini inancları arxaik qalıq kimi görməməsi və onların sosial dəyərini başa düşməsi lazım olduğunu bildirir. Bu qarşılıqlı uyğunlaşma dini və sekulyar baxışların bir arada olduğu və ictimai müzakirələrə töhfə verdiyi bir dialoq mühiti yaradır. Məqalə sekulyarizm və postsekulyarizm arasındakı fərqləri izah edir. Sekulyarizm dini özəl sahə ilə məhdudlaşdırmağı və ictimai qərar qəbul etmədə rasional və elmi düşüncəni vurğulamağı hədəfləyir. Postsekulyarizm isə dini ictimai sahəyə inteqrasiya edərək onu mənəvi və mədəni dəyərlərin mənbəyi kimi görür. Habermas dini arqumentlərin ictimai müzakirələrdə ümumi şəkildə başa düşülə bilən, sekulyar bir dilə çevrilməsini təklif edən bir "tərcümə prosesi" anlayışını irəli sürür. Nəticə olaraq, məqalə postsekulyarizmin dini və sekulyar perspektivləri tarazlaşdıraraq qlobal problemlərin həllində əməkdaşlıq etməyə imkan verən daha inklüziv bir çərçivə təklif etdiyini vurğulayır.

**Açar sözlər:** dünyəvilik, sekulyarizm, post-sekulyarizm, post-sekulyar cəmiyyət, Habermas, Rouls

* Sosiologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan İlahiyyat İnstitutunun dosenti; Bakı, Azərbaycan
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

**Məqaləyə istinad:** Qənbərov, A. [2025] Sekulyarizmdən Postsekulyarizmə: Paradiqmatik Dəyişiklik?. *“Metafizika” jurnalı, 8*(3), səh.24-36.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.24-36

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 30.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 03.02.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir dünyada din və cəmiyyət arasındakı münasibətlər cəmiyyətin inkişafı ilə paralel olaraq zaman-zaman dəyişikliklərə uğramış və müxtəlif düşüncə axınları tərəfindən müzakirə edilmişdir. Bu müzakirələrin ən mühüm mövzularından biri dinin ictimai, siyasi və mədəni həyatda roludur. Siyasi nəzəriyyədə iki əsas yanaşma - sekulyarizm və postsekulyarizm bu mövzuda fərqli baxışlar təqdim edir.

Sekulyarizm XIX əsrdə dini təsirlərin cəmiyyətdən və ictimai-siyasi həyatdan tamamilə aradan qaldırılmasını məqsəd qoydu. Lakin dinin yalnız şəxsi və özəl sahəyə aid ediləcəyi, ictimai və siyasi həyatdan tamamilə uzaqlaşdırılacağı fikri, xüsusən XX əsrin sonlarına yaxın bir sıra sosial və mədəni dəyişikliklər fonunda problemli və qeyri-real görünməyə başladı. Bir çox tanınmış tədqiqatçılar bugünkü dünyada dinin hələ də ictimai-siyasi proseslərdə əhəmiyyətli olduğunu, modernləşmə prosesinin birmənalı şəkildə dünyanı daha dünyəvi hala gətirəcəyi fərziyyələrinin reallığa uyğun olmadığını etiraf etdilər [Berger, 1999; Ertit, 2019; Taylor, 2009]. Beləliklə, “dinin insan həyatının mərkəzindən uzaqlaşması”, “ictimai və fərdi müstəvidə dinin əhəmiyyətinin azalması” kimi təsvir edilən sekulyarizasiya nəzəriyyəsi haqqında tənqidi fikirlər getdikcə yüksəlməyə başladı [Bruce, 2011; Casanova, 2007; Martin, 2017]. Ayrıca, müasir rasionalizmin insan ehtiyaclarına həmişə cavab verə bilməməsi, mənəvi axtarışları artırdı. Bundan başqa, insanların dini inanc və təcrübələrinin sosial həyatda, cəmiyyətin mədəniyyətində və gündəlik həyatında önəmli yer tutmağa davam etməsi sekulyarizmin bu sahədəki baxışlarını uğurlu şəkildə həyata keçirməsində əlavə problemlər yaratmışdır.

Digər tərəfdən, qloballaşma prosesi nəticəsində mədəniyyətlərin qarşılıqlı əlaqələrinin artması və çoxkonfessiyalı cəmiyyətlərin meydana çıxması dinin yenidən aktuallaşmasına səbəb olmuşdur. Qloballaşma prosesi, adətən, dünyanın iqtisadi, siyasi və mədəni baxımdan inteqrasiyası, ahəngləşməsi kimi xarakterizə edilir. Amerikalı sosioloq Roland Robertsonun geniş qəbul olunan tərifinə görə, *qloballaşma dünyanın sıxılıb-kiçilməsi və ümumdünya şüurunun yaranması* prosesini ifadə edir (Robertson, 1992). R.Robertsonun fikrincə, qloballaşma prosesində ölkələrin qarşılıqlı yaxınlaşması və asılılığı qədər, ortaq fikirlər və şüurun formalaşması da böyük əhəmiyyət kəsb edir. Tanınmış Amerika sosioloqu Corc Ritzerin qloballaşma ilə bağlı fikirləri bu proses haqqında olduqca əhatəli və dolğun məlumat verir. Sosioloq hesab edir ki, *qloballaşma insanların, əmtəənin, məkanların və məlumatların artan çoxistiqamətli axınlarını, habelə bu axınların qarşılaşdığı və bunlara maneə olan və ya sürətləndirən strukturları ehtiva edən ümumbəşəri proseslərin məcmusudur* [Ritzer, 2010, 2].

Beləliklə, müasir qloballaşmış cəmiyyətlər, xüsusilə Avropa və ABŞ kimi ölkələr, mədəni və dini müxtəlifliklə qarşılaşır. İnsanlar müxtəlif dini inanc və dünyagörüşlərinə sahibdirlər və din bu mədəni müxtəlifliklərin mərkəzində yer alır. Din hər bir mədəniyyətdə, sosial həyatın müxtəlif sahələrində təzahür edir. Qloballaşma bir tərəfdən fundamentalist dini qrupların canlanmasına, digər tərəfdən isə yeni spiritualist cərəyanların yaranmasına səbəb olmuşdur (Turner, 2010). Plüralist bir cəmiyyətdə dinin və mədəniyyətin müxtəlif formalarının daha görünən olması, postsekulyarizmin qəbul edilməsinə şərait yaradır. Dini və mədəni müxtəlifliyin qəbul edilməsi sekulyarizmin yalnız bir növ "*universal*" model kimi tətbiq edilməsinin qeyri-mümkün olduğunu göstərməkdədir.

Bu mənada, Habermas qeyd edir ki, müasir qloballaşma dövründə dini inanclar özünü modernləşmə prosesinə uyğunlaşdırmalıdır. Bu, dini icmaların elmi biliklərə və dünyəvi qanunlara münasibətdə daha refleksiv (özünütənqidi) mövqe tutmasını tələb edir. Eyni zamanda, sekulyar vətəndaşlar da dini inancları sırf "arxaik qalıq" kimi görməməli, onların cəmiyyət üçün dəyərini anlamağa çalışmalıdır [Habermas, 2006].

Qeyd edilməlidir ki, qlobal miqyasda baş verən sosial və siyasi dəyişikliklər dinin yalnız bir özəl inanc olaraq qalmaqla yanaşı, dövlət siyasətində və ictimai həyatda daha aktiv rol oynayacağını göstərdi. Sosial ədalət, insan hüquqları və digər siyasi məsələlərdə dini təsir və müdaxilə postsekulyarizmin inkişafına şərait yaratdı. Modern dünyada insanlar daha çox fərdi və kollektiv kimliklərini dini və mədəni dəyərlərlə müəyyən edirlər. Dini kimliklər millətçilik, etnik kimliklər və digər sosial identifikasiya formaları ilə sıx bağlıdır. İnsanlar üçün din sadəcə özəl bir inanc deyil, həm də sosial və mədəni bir faktor halına gəlmişdir. Postsekulyarizm dinin bu çoxşaxəli rolunu qəbul edir və cəmiyyətdəki rolunu inkar etmək əvəzinə, onun sosial və mədəni həyatda davamlı təsir göstərməsini qəbul edir.

Beləliklə, bu məqalədə sekulyarizm və postsekulyarizm arasında əsas fərqləri araşdıracaq, hər iki yanaşmanın cəmiyyətdəki və dövlətin fəaliyyətindəki yerini müqayisə edəcəyik. Həmçinin, bu iki düşüncə axınının din və modernizm anlayışlarına necə təsir etdiyini və gələcəkdə dinin cəmiyyətin müxtəlif sahələrindəki rolunun necə inkişaf edə biləcəyini müzakirə edəcəyik.

## 2.Postsekulyarizmin anlayışı

Postsekulyarizm müasir cəmiyyətlərdə sekulyarlaşmadan (dünyəviləşmədən) sonrakı dövrdə dinin ictimai, siyasi və ictimai sahələrdə yenidən aktuallıq qazandığı bir yanaşmanı ifadə edir. Bu anlayış dövlət və din arasındakı ənənəvi ayrılığın müasir cəmiyyətlərin çoxşaxəliliyi fonunda yenidən formalaşmasını əks etdirir. Postsekulyar dövrdə dövlət-din

münasibətlərinin dinamikası sekulyarlaşma nəzəriyyələrinin proqnozlarını sual altına alır və dinin müasir demokratik quruluşlar içərisindəki yeri və təsiri yeni bir baxış bucağından öyrənilir.

Postsekulyarizm sekulyar dövlət anlayışını tamamilə aradan qaldırmağı deyil, dini elementlərin cəmiyyətin mənəvi və mədəni həyatında nəzərə alınmasını dəstəkləyir. Alman filosofu Jürgen Habermas postsekulyarizm anlayışını dini və sekulyar baxışların bir arada mövcud olduğu bir dialoq mühiti kimi qəbul edir. Bu prosesdə din ictimai müzakirələrdə etik və dəyər mənbəyi kimi yenidən mühüm rol oynayır. J.Habermasın nəzəriyyəsinə əsasən bu termin müasirlik və sekulyarlaşma proseslərinin dinə qarşı eksklüzivist və soyuq münasibətinin artıq kifayət etmədiyini müdafiə edir. Klassik sekulyarizasiya (dünyəviləşmə) nəzəriyyələrinin "dinin qaçılmaz şəkildə zəifləyəcəyi" təxminini qəbul etməyərək, dinin müasir ictimai institutlarla uyğunluq içində mövcud ola biləcəyini irəli sürür. O, sekulyar dövlətin müdafiə etdiyi din ilə dövlətin qəti şəkildə ayrılması anlayışının bərabər dini azadlığı təmin etmək üçün yetərli bir şərt olmadığını irəli sürür. Çünki bu yanaşma inanc sahibi vətəndaşlardan, xüsusən ictimai müzakirələrə qoşulduqları və ictimai rəyin formalaşmasına töhfə verdikləri zaman "kimliklərini ictimai və şəxsi komponentlərə bölünmələrini" tələb edir (Habermas, 2005). Lakin insan həyatının bütövlüyünü nəzərə aldıqda, bunu həyata keçirmək qeyri-mümkün görünür.

Buna görə də postsekulyarizm nəzəriyyəsi dinin fərdi sferaya sıxışdırılmasının həm qeyri-mümkün, həm də arzuolunmaz olduğunu irəli sürür. Dinin cəmiyyətin sosial-mədəni həyatına, dünyanın taleyüklü problemlərinə, qlobal ekoloji problemlərə və s. mühüm töhfə verə biləcəyini müdafiə edir. Elə isə sekulyar institutlar dini qurumlarla ortaq zəmində qlobal problemləri müzakirə etməyə açıq olmalı, cəmiyyətdə ayrı qütblərə bölünməməlidir. Habermas hesab edir ki, belə ortaq platformanın yaranması üçün sekulyar institutlar dini adekvat dünya görüşü kimi qəbul etməli, dini qurumlar da müasir dünyanın tələblərinə uyğun bir dini dünya görüşü təqdim etməlidirlər. Qısaca, J.Habermasın fikrincə, “din müasir dilə tərcümə” edilməlidir (Habermas, 2005).

Bəzi alimlərin fikrincə, Habermasın “*post-sekulyarizm*” ideyası John Roulsun “ictimai ağıl” (public reason) və “əhatəli doktrinalar” (comprehensive doctrines) fikrindən ilhamlanmışdır. Belə ki, J.Rouls "*The idea of Public Reason revisited*" adlı əsərində, "ictimai ağıl" anlayışını yenidən nəzərdən keçirir və demokratik cəmiyyətlərin əsasını təşkil edən prinsipləri izah edir. Onun fikrincə, ictimai ağıl, demokratik cəmiyyətlərdə vətəndaşların siyasi qərarlar qəbul edərkən bir-birinə qarşı münasibətlərini tənzimləyən əsas anlayışdır. İctimai ağıl, xüsusilə konstitusiyaya aid məsələlərdə və əsas ədalət

məsələlərində, dövlət rəsmilərinin qərar qəbuletmə prosesində mərkəzi yer tutur. Demokratik rejimlərdə müxtəlif əhatəli fəlsəfi, dini və əxlaqi doktrinaların mövcudluğu normaldır. Bu plüralizm səbəbindən ictimai qərarlar hər kəsin qəbul edə biləcəyi (reasonable) əsaslı səbəblərə söykənməlidir. Siyasi gücün istifadəsi yalnız o zaman qanuni hesab olunur ki, qərar qəbul edənlər öz səbəblərinin başqaları tərəfindən də məntiqli qəbul ediləcəyinə inanır. Rouls vurğulayır ki, dini və sekulyar doktrinalar ictimai müzakirələrdə təqdim edilə bilər, lakin bu mövqelər ictimai əsaslandırılmış siyasi dəyərlərlə dəstəklənməlidir. Dini və sekulyar baxışlar, hər bir vətəndaşın bərabər hüquqlarını təmin edən konstitusiya prinsipləri ilə uzlaşmalıdır (Rawls, 1997). Ədalətli cəmiyyətin formalaşması üçün hər bir fərd digər şəxslərin azadlıqlarına xələl gətirmədən, ən geniş əsas azadlıqlara malik olmalıdır. Bu, insan hüquqları və siyasi azadlıqların qorunmasını təmin edir (Rawls, 1991). J.Roulsun fikrincə, sabit demokratik cəmiyyət yalnız o zaman mümkün olur ki, vətəndaşlar siyasi prinsipləri öz daxili dəyərləri ilə uyğunlaşdıraraq qəbul etsinlər (Rawls, 1997).

Qısaca, postsekulyarizm həm dünyəvi, həm də dini perspektivləri balanslaşdırmaq məqsədilə müasir demokratik strukturlar üçün yeni normativ çərçivə təklif edir. Bu proses cəmiyyətlərin dini və mədəni müxtəlifliyini nəzərə alan daha inklüziv dövlət siyasətinin inkişafına zəmin yarada bilər. Postsekulyarizm sekulyarizm (dünyəvilik) prinsipinin zəifləməsinə və ya dini münaqişələrin artmasına səbəb ola biləcəyi ilə bağlı narahatlıqlar doğurmuşdur. Lakin postsekulyarizm nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, bu fikir sekulyarizmin aradan qaldırılması və teokratiyaya geriyə dönüş deyil, daha çox sekulyar və dini-mənəvi həyat arasında tarazlığın qurulması axtarışından ibarətdir.

**3.Post-sekulyar cəmiyyət**

Habermas müasir cəmiyyətləri "post-sekulyar" kimi xarakterizə edir. Bu termin sekulyarlaşma prosesinin qlobal miqyasda dərinləşməsinə baxmayaraq, dinin ictimai və siyasi həyatda yenidən mühüm rol oynadığını ifadə edir. O qeyd edir ki, din yalnız fərdi inanclar səviyyəsində deyil, həm də ictimai diskurslarda və siyasi proseslərdə aktiv iştirak edir. Xüsusilə ABŞ və bəzi Avropa ölkələrində dinin siyasi proseslərə təsiri artmaqdadır (Habermas, 2006). Habermas dinin ictimai diskurslarda iştirakını dəstəkləyir, lakin bunun üçün müəyyən şərtlər irəli sürür. Yuxarıda qeyd etdiyimiz kimi, o bildirir ki, dini arqumentlər ictimai müzakirələrə daxil edilə bilər, lakin bu arqumentlər sekulyar (hamı üçün anlaşılan) bir dilə çevrilməlidir. Bu "tərcümə prosesi", həm sekulyar, həm də dini vətəndaşlar arasında qarşılıqlı anlaşmanı təmin etmək üçün vacibdir.

Habermas multikulturalizm və sekulyarizm arasında balansın vacibliyini vurğulayır. Multikulturalizm tərəfdarları kollektiv kimliklərin qorunmasını müdafiə edir, sekulyaristlər isə fərdi hüquqların üstünlüyünü müdafiə edir. Multikulturalizm tərəfdarları kollektiv kimliklərin qorunmasını irəli sürərkən, qarşı tərəfi “*radikal maarifçiliklə*” ittiham edir. Kommunitar nöqteyi-nəzərdən mücərrəd inteqrasiya siyasəti azlıqları çoxluq mədəniyyətinin içərisində əriyib assimilyasiya olmağa məruz qoyur. Qatı dünyəviliyi (sekulyarizmi) önə çəkənlər isə etnik azlıqların heç bir kompromisə getmədən inteqrasiya edilməsini müdafiə etməkdə, rəqiblərini “maarifçilik ideyaları”na xəyanət etməkdə günahlandırırlar. Habermas hər iki tərəfin bir-birinə qarşı çıxmaq əvəzinə, birgə yaşamaq üçün qarşılıqlı hörmət və əməkdaşlıq yolu tapmalı olduğunu bildirir. (Habermas, 2008, 24).

Postsekulyar cəmiyyətdə dövlət-din münasibətləri sərt ayrı-seçkilik yerinə, daha çevik və əhatəli modellərlə yenidən şəkilləndirilir. Din və dövlət arasında əməkdaşlığa əsaslanan bu münasibət plüralist demokratiyaların ehtiyaclarına cavab vermək üçün hazırlanmışdır. Bu yanaşmaya görə din özəl (private) sahə ilə məhdudlaşmaqdansa, ictimai sahədə fərdlər arasında dəyər və məna yaratmağa töhfə verə bilər (Turner, 2010). Dini qrupların ictimai sahədə fəaliyyət göstərmək üçün dövlətin maliyyə dəstəyindən yararlanması istisna edilmir. Bununla belə, dövlətin neytral qalması və dini qurumların siyasiləşməsinin qarşısının alınması postsekulyarizmin uğurla həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

## 4.Sekulyarizm və postsekulyarizmin fərqləri

Sekulyarizm dinin ictimai həyatdan və dövlət işlərindən ayrılmasını müdafiə edən bir siyasi-fəlsəfi düşüncədir. Qeyd edildiyi kimi, sekulyarizm ideyası XIX əsrdə, xüsusilə Avropada modernləşmə ilə birlikdə inkişaf etmişdir. Sekulyar düşüncə cəmiyyəti dinin təsirindən müstəqil şəkildə təşkil etməyi qarşısına əsas məqsəd qoyur. Buna görə də dövlətin və cəmiyyətin idarə edilməsi dinin təsiri altına girməməlidir.

Din və dövlətin ayrılığı prinsipi sekulyarizmin əsas müddəalarından biridir. Əsasən sekulyarizmin Fransa modelində təzahür edən bu yanaşmaya görə dövlətin dini bir yönü və ya dini qaydalara əsaslanan bir idarəetmə anlayışı olmamalıdır. Bu fikrə görə dövlət bütün dinlərə qarşı neytral olmalı, ictimai sferanın sekulyarlığını qorumalı və bu səbəbdən heç bir dinə maliyyə dəstəyi verməməlidir. Fransa parlamentinin 1905-ci ildə qəbul etdiyi “Laicite” qanununun 2-ci maddəsində deyilir: “*Cümhuriyyət heç bir inancı nə tanıyır, nə maliyyə ayırır, nə də dəstəkləyir*” (Bauberot, 2009, 89; Bauberot, 2008, 18). Bununla birlikdə, qeyd edilməlidir ki, müasir dövrdə sekulyarizmin müxtəlif formaları vardır: liberal sekulyarizm – marksist sekulyarizm, pozitiv sekulyarizm-neqativ sekulyarizm (Kuru, 2009). Sekulyar din siyasəti dövlət-

din ayrılığı prinsipinə əsaslanır. Liberal istiqamətli sekulyar din siyasəti fərdlərin və ictimai birliklərin din və etiqad azadlıqlarını təmin edir. Sekulyar din siyasətinin marksist modelində isə din cəmiyyəti geriliyə aparan bir amil kimi qiymətləndirilir. Buna görə də din azadlıqları təmin edilmir və dini qrupların fəaliyyətləri cəmiyyət üçün təhlükə mənbəyi hesab edilərək məhdudlaşdırılır (Qənbərov, 2019).

Liberal sekulyar model ictimai və özəl sferanın ayrılması fərziyyəsinə əsaslanır. Liberal sekulyarizmə görə, din fərdlərin şəxsi (private) həyatına aid bir mövzu olmalı, ictimai həyatdan xaric edilməlidir. İctimai sahədə (public) din görünməməlidir. Sekulyarizm insan həyatını ictimai və özəl sahəyə bölür, fərdin dini həyatı özəl sahədən kənara çıxmamalıdır. Sekulyarizmə görə elm, təhsil və hüquq kimi, insan həyatının taleyüklü məsələlərinin həll olunduğu sahələrdə dini inanclara deyil, yalnız rasional və elmi düşüncəyə üstünlük verilməlidir. Sekulyarizm düşüncəsinə görə, dinin bu sahələrdə deyə biləcəyi bir söz yoxdur. Bu, modernizm paradiqmasının əsas prinsiplərindən biridir. Lakin Habermas iddia edir ki, sekulyarizm dəyərlər yaratmaqda çətinlik çəkir və yalnız "tolerantlıq" çərçivəsində məhdudlaşa biləcəyini bildirir. O, sekulyar dövlətlərin dini arqumentləri tamamilə kənarlaşdırmasının demokratik cəmiyyətlərin inklüzivliyinə zərər verə biləcəyini vurğulayır. Dövlətin neytrallığı qorunsa da, ictimai diskurslarda dini ifadələrə yer verilməsinin yeni imkanlar yaratdığı fikrini irəli sürür (Habermas, 2008, 24).

Postsekulyarizm sekulyarizmin müdafiə etdiyi dinin ictimai sahədən xaric edilməsi fikrini sual altında qoyan bir yanaşmadır. Postsekulyar düşüncə sekulyarizmin cəmiyyəti və dinin insan həyatındakı rolunu tam şəkildə nəzərə almadığını irəli sürür. Postsekulyarizm dinin müasir cəmiyyətlərdə yenidən mühüm bir rol oynaya biləcəyini və dinin tamamilə cəmiyyət həyatından xaric edilə bilməyəcəyini iddia edir. Bu mənada, J.Habermas dünyəvi dövlətlərin dini və sekulyar dünyagörüşlərinə qarşı neytral olmalı olduğunu bildirir. Dövlətin qanunları və qərarları yalnız hər kəs üçün anlaşılan və qəbul edilə bilən sekulyar prinsiplərlə əsaslandırılmalıdır. Bununla belə, dini təşkilatların və fərdlərin öz dini dilində ictimai diskurslarda iştirakı qadağan edilməməlidir, çünki bu, cəmiyyətin mənəvi zənginliyinə töhfə verə bilər (Habermas, 2006).

Postsekulyarizm dinin müasir dünyada daha dinamik və pozitiv şəkildə mövcud ola biləcəyini müdafiə edir. Din mənəvi dəyərlər, həmrəylik və kimlik quruculuğu kimi ictimai proseslərdə mühüm bir mənbə kimi qəbul edilir. Sekulyarizmin dinin sosial və mədəni həyatda əhəmiyyətini və yerini tam anlamadığını iddia edir. Postsekulyar düşüncə müxtəlif dini və sekulyar baxışların birgə mövcudluğunu təşviq edir. Fərqli dini və mədəni inancların cəmiyyət həyatında daha çox görünməsini müdafiə edir. Din, ictimai müzakirələrdə yer ala bilər və müasir dəyərlərlə uyğun şəkildə yenidən şərh

oluna bilər. Eyni zamanda, din və dövlətin qəti şəkildə ayrılmasına, başqa sözlə qatı sekulyarizmə qarşı çıxır. Habermas dindar və sekulyar vətəndaşların bir-birini başa düşməsi üçün qarşılıqlı "öyrənmə proseslərinə" ehtiyac olduğunu irəli sürür. Dindar vətəndaşlar sekulyar qanunların üstünlüyünü qəbul etməli, sekulyar vətəndaşlar isə dini ifadələrdə gizli mənəvi dəyərləri və intuisiyaları tanımalıdır.

Qısaca, klassik sekulyarizm Fransa modelində olduğu kimi dünyəviliyin əsas prinsiplərindən biri olan “dövlətin, siyasətin və vətəndaş cəmiyyətinin dini qayda-qanunlardan tamamilə müstəqil olması” fikrini müdafiə edir (Bauberot, 2008, 18; Bauberot, 2009); postsekulyarizm isə dinin cəmiyyət və ictimai sahələrdə yenidən aktiv bir rol oynamasını müdafiə edir. Sekulyarizm dini cəmiyyətdən və ictimai həyatdan xaric etməyi hədəfləyərkən, postsekulyarizm dini sosial və mədəni səviyyədə cəmiyyətə inteqrasiya etməyi nəzərdə tutur. Sekulyarizm modernizmin bir nəticəsi olaraq meydana çıxarkən, postsekulyarizm modernizmin dinin təsirlərini gözardı edən tərəflərini tənqid edir. Nəticə olaraq, sekulyarizm dinin cəmiyyət və ictimai sahələrdəki təsirini məhdudlaşdırarkən, postsekulyarizm dinin cəmiyyət həyatında dinamik bir yer tuta biləcəyini qəbul edir və bu əlaqəni yenidən formalaşdırmağı təklif edir.

**5.Nəticə**

Sekulyarizm və postsekulyarizm müasir cəmiyyətlərdə dinin rolu və yeri ilə bağlı iki əsas nəzəri yanaşmanı təmsil edir. Sekulyarizm dinin cəmiyyətdən və dövlət işlərindən ayrılmasını təklif edən bir düşüncə tərzi olaraq, modernizmin bir nəticəsi kimi XIX əsrdə inkişaf etmişdir. Bu yanaşma dini təsirlərin ictimai və siyasi həyatdan uzaqlaşdırılmasını və elmi-rasional düşüncənin üstün tutulmasını müdafiə edir. Ancaq zamanla sekulyarizmin dinin cəmiyyətdəki davamlı və güclü təsirini tamamilə arxa plana atmaqda çətinlik çəkdiyi, dinin hələ də müasir cəmiyyətlərdə əhəmiyyətli bir yer tutduğu faktları üzə çıxmışdır.

Bu mülahizələrdən irəli gələrək postsekulyarizm nəzəriyyəsi ortaya çıxmışdır. Postsekulyarizm sekulyarizmin dinin sosial, mədəni və siyasi həyatda rolunu tamamilə inkar etməsini tənqid edir. Bu yanaşma dinin cəmiyyətin mədəni və sosial strukturlarında hələ də mühüm yer tutduğunu və dinin müxtəlif cəmiyyətlərdə aktiv rol oynamağa davam edəcəyini qəbul edir. Postsekulyarizm dinin yalnız şəxsi bir inanc olaraq qalmaqla yanaşı, cəmiyyətin gündəlik həyatında və ictimai müzakirələrdə aktiv və görünən bir rol oynayacağına inanır.

Nəticə olaraq, sekulyarizm və postsekulyarizm arasındakı fərqlər dinin cəmiyyət və dövlətlə münasibətini və bu münasibətin necə formalaşacağını müəyyən edən siyasi-fəlsəfi fikir fərqlilikləridir. Sekulyarizm dinin cəmiyyətin strukturundan ayrılmasını tələb etsə də, postsekulyarizm dinin müasir dünyada

hələ də əhəmiyyətli yerini qoruyub-saxladığını iddia edir. Düşünürük ki, bu iki yanaşma arasında gedən müzakirələr və tənqidi mülahizələr din və cəmiyyət arasındakı əlaqələrin necə inkişaf edəcəyinə dair gələcəkdə daha dərin və daha kompleks müzakirələrə yol açacaqdır.

## ƏDƏBİYYAT

**1.** Baubérot, J. (2005). *Laiklik: Tutku ve akıl arasında 1905–2005* (A. Er, Trans.). İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları.
**2.** Baubérot, J. (2008). *Dünyada laiklik* (E. C. Gürhan, Trans.). İstanbul: Degah Yayınları.
**3.** Berger, P. L. (1999). *The desecularization of the world: Resurgent religion and world politics*. Wm. B. Eerdmans Publishing.
**4.** Bruce, S. (2011). *Secularization: In defence of an unfashionable theory*. Oxford University Press.
**5.** Casanova, J. (2007). Rethinking secularization: A global comparative perspective. Brill. *Religion, globalization, and culture*, pp. 101–120.
**6.** Ertit, V. (2019). *Sekülerleşme teorisi* (1st ed.). Liberte Yayınları.
**7.** Ritzer, G. (2010). *Globalization: A basic text*. Oxford: Wiley-Blackwell.
**8.** Goode, L., & Habermas, J. (2005). *Democracy and the public sphere*. London: Pluto Press.
**9.** Habermas, J. (2006). Religion in the public sphere. *European Journal of Philosophy, 14*(1), 1–25.
**10.** Habermas, J. (2008). Notes on post-secular society. *New Perspectives Quarterly*, *25*(4), 17–29.
**11.** Kuru, A. T. (2009). *Secularism and state policies toward religion: The United States, France and Turkey*. Cambridge: Cambridge University Press.
**12.** Martin, D. (2017). *On secularization: Towards a revised general theory*. Routledge.
**13.** Qənbərov, A. (2019). *Azərbaycanda dövlət-din münasibətləri: Dünyəviliyin nəzəri və hüquqi əsasları*. Bakı: Nurlar Nəşriyyat və Poliqrafiya Mərkəzi. (in Azerbaijani)
**14.** Qənbərov, A. (2022). *Din sosiologiyası: Ali məktəblər üçün dərslik*. Bakı: AVE Print MMC. (in Azerbaijani)
**15.** Rawls, J. (1991). Justice as fairness: Political not metaphysical. In *Equality and Liberty: Analyzing Rawls and Nozick*, pp. 145-173. London: Palgrave Macmillan UK.
**16.** Rawls, J. (1997). The idea of public reason revisited. *The University of Chicago Law Review, 64*(3), 765–807.

**17.** Robertson, R. (1992). *Globalization: Social theory and global culture*. London: Sage.
**18.** Taylor, C. (2009). *Seküler çağ* (D. Körpe, Trans.). Türkiye İş Bankası Kültür Yayınları. (in Turkish)
**19.** Turner, B. S. (2010). Religion in a post-secular society. *The new Blackwell companion to the sociology of religion*, pp. 649–667. https://doi.org/10.1002/9781444320787.ch29
**20.** Wallis, R., & Bruce, S. (1992). Secularization: The Orthodox Model. *Religion And Modernization*, 8–30. https://doi.org/10.1093/oso/9780198273691.003.0002

## REFERENCES

**1.** Baubérot, J. (2005). *Secularism: Between Passion and Reason 1905–2005* (A. Er, Trans.). Istanbul: Istanbul Bilgi University Publications. (in Turkish)
**2.** Baubérot, J. (2008). *Secularism in the World* (E. C. Gurhan, Trans.). Istanbul: Degah Publications. (in Turkish)
**3.** Berger, P. L. (1999). *The desecularization of the world: Resurgent religion and world politics*. Wm. B. Eerdmans Publishing. (in English)
**4.** Bruce, S. (2011). *Secularization: In defence of an unfashionable theory*. Oxford University Press. (in English)
**5.** Casanova, J. (2007). Rethinking secularization: A global comparative perspective. In *Religion, globalization, and culture* (pp. 101–120). Brill. (in English)
**6.** Ertit, V. (2019). *Secularization Theory* (1st ed.). Liberte Publications. (in Turkish)
**7.** Ritzer, G. (2010). *Globalization: A basic text*. Oxford: Wiley-Blackwell. (in English)
**8.** Goode, L., & Habermas, J. (2005). *Democracy and the public sphere*. London: Pluto Press. (in English)
**9.** Habermas, J. (2006). Religion in the public sphere. *European Journal of Philosophy*, *14*(1), 1–25. (in English)
**10.** Habermas, J. (2008). Notes on post-secular society. *New Perspectives Quarterly*, *25*(4), 17–29. (in English)
**11.** Kuru, A. T. (2009). *Secularism and state policies toward religion: The United States, France and Turkey*. Cambridge: Cambridge University Press. (in English)
**12.** Martin, D. (2017). *On secularization: Towards a revised general theory*. Routledge. (in English)

**13.** Ganbarov, A. (2019). *State-Religion Relations in Azerbaijan: Theoretical and Legal Foundations of Secularism*. Baku: Nurlar Publishing and Printing Center. (in Azerbaijani)
**14.** Ganbarov, A. (2022). *Sociology of Religion: Textbook for Higher Education Institutions*. Baku: AVE Print MMC. (in Azerbaijani)
**15.** Rawls, J. (1991). Justice as fairness: Political not metaphysical. In *Equality and Liberty: Analyzing Rawls and Nozick* (pp. 145–173). London: Palgrave Macmillan UK. (in English)
**16.** Rawls, J. (1997). The idea of public reason revisited. *The University of Chicago Law Review*, *64*(3), 765–807. (in English)
**17.** Robertson, R. (1992). *Globalization: Social theory and global culture*. London: Sage. (in English)
**18.** Taylor, C. (2009). *A Secular Age* (D. Korpe, Trans.). Turkiye Ish Bankasi Cultural Publications. (in Turkish)
**19.** Turner, B. S. (2010). Religion in a post-secular society. In *The New Blackwell Companion to the Sociology of Religion* (pp. 649–667). https://doi.org/10.1002/9781444320787.ch29 (in English)
**20.** Wallis, R., & Bruce, S. (1992). Secularization: The Orthodox Model. *Religion And Modernization*, 8–30. https://doi.org/10.1093/oso/9780198273691.003.0002 (in English)